# “Prezidentimizin bu qayğısını vətənimizə layiqli vətəndaş olmaqla doğruldacağıq”

“Göygöl haqqında çox eşitmişdim. Ancaq etiraf edim ki, onun bu qədər füsunkar olduğunu təsəvvür etmirdim. Gəlib öz gözlərimlə gördüm. Xüsusilə burada aparılan böyük abadlıq və yenidənqurma işləri məni heyran etdi”.



Bu sözləri “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyanın iştirakçısı, Biləsuvar rayon 4 nömrəli tam orta məktəbin XI sinif şagirdi Ülkər Məmmədzadə AZƏRTAC-a müsahibəsində söyləyib.

Ülkər Məmmədzadə deyib: “Gəncənin, Şəmkirin və Göygölün tarixi, bu yerlərin əsrarəngiz gözəllikləri haqqında qəzetlərdən oxuyub, televiziya verilişlərindən görmüşdüm. İndi sevincimin həddi-hüdudu yoxdur. Göygöl rayonunda tarixi yerlərlə, mədəniyyət obyektləri ilə tanış olduqdan sonra qrupumuzu səfalı Hacıkəndə apardılar. Meşələri, dağları gördükcə fərəhlənir, belə bir ölkədə yaşamağımızla fəxr edirdik. Bu sevinci bizə yaşadan Prezidentimizdir. Buna görə bütün məktəbli dostlarım adından dövlət başçısına minnətdarlığımızı bildirirəm. Söz veririk ki, bizə göstərilən bu qayğını əla qiymətlərlə oxumaqla, vətənimizə layiqli vətəndaş olmaqla doğruldacağıq”.